## TƏBRİK EDİRİK!



Tanınmış kitabxanaşünas alim, Bakı Dövlət Universitetinin Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Aşur Müseyib oğlu Əliyevinanadan olmasının 70 illiyi tamam olur.

"Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri, metodik və təcrübi jurnalının redaksiya heyəti, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının kollektivi Azərbaycanda kitabxanaşünaslıq və informasiya elmlərinin inkişafında və bu sahədə gənc mütəxəssislərin yetişdirilməsində özünəməxsus xidmətləri olan dosent Aşur Əliyevi əlamətdar yubileyi münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı, yeni-yeni elmi nailiyyətlər arzulayır.

**Xəlil İSMAYILOV**

***Kitabxana resursları və informasiya axtarış sistemləri kaferasının müdiri, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor***

**Nadir İSMAYILOV**

***Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, pedaqogika üzrə fəlsəfə doktoru, dosent***

## MÜƏLLİM VƏ ALİM ÖMRÜNÜN MÜDRİKLİK PİLLƏSİ

*Qüvvət elmdədir!Başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz!*
*Rütbələr işində seçilir biri,*
*Hamıdan ucdır alimin yeri!*

Böyük Azərbaycan şairi, mütəfəkkiri, filosofu Nizami Gəncəvi bu dahi misraları ilə bəşər mədəniyyəti və ədəbiyyatı tarixində belə bir mövqe ortaya qoymuşdur ki, məhz yalnız elmli, bilikli insanlar ən güclü, qüvvətli olandır. Dünyadakı ən heyrətamiz güc, ən sehirli və əzəmətli qüvvə yalnız elmdə, hikmətdə, fəzilətdədir. Yalnız elm yolu ilə qalibiyyət, hünər göstərmək, rəşadət



nümayiş etdirmək olar. Böyük mütəfəkkir şair göstərir ki, dünyadakı bütün rütbələrdən, adlardan, məqam və mövqelərdən ən ucası, ən ülvisi, ən böyüyü alimin adı, rütbəsi və əzəmətidir. Məhz alimin yeri və əzəməti, alimin qüdrəti və rəşadəti, alimin hikməti, nuru və işığı bütün digər məqamlar içərisində ay kimi nur saçır, günəş kimi parlayır. Bəşəriyyəti, insanlığı, onun gələcəyini yalnız elmin gücü, alimin hünəri xilas edəcək, işığa, nura doğru aparacaqdır..!

Ona görə də elmə, alimə qayğı göstərmək, onu diqqətdə saxlamaq, alim hikmətinə sədaqət göstərmək, onun hörmət və ehtiramını yüksək tutmaq daim bütün quruluşlar, toplumlar, cəmiyyətlər qarşısında ən ümdə və müqəddəs vəzifə kimi qoyulmuşdur.

Alimə hörmət, ona səmimi ehtiram hər bir insanın yüksək mənəvi borcudur. Burada həm bütöv halda xalqın, millətin və dövlətin, eləcə də, vətəndaşın, o cümlədən alimin alimə səmimi hörməti və ehtiramı ifadə olunur.

Bütün fəaliyyəti boyu alim adının şərəfini uca tutmuş, onu hörmətlə, şərəflə daşımış əziz həmkarımız, kitabxanaşünas alim, tarix üzrə fəlsəfə doktoru, dosent Aşur Müseyib oğlu Əliyev ömrünün 70-ci baharına qədəm qoyur.

Aşur Əliyev doğma Kitabxanaçılıq-informasiya fakültəsinin yetirməsidir və bütün sonrakı həyatını da məhz fakültə ilə bağlamış və vu günə qədər dəburada elmi-pedaqoji fəaliyyətlə məşğuldur.

Aşur Müseyib oğlu Əliyev 1946-cı il iyunun 1-də Zəngilan rayonunun Baharlı kəndində anadan olmuşdur. 1953-1965-ci illərdə orta təhsil almışdır. 1965-1969-cu illərdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində təhsil almışdır. 1969-1970 ci illərdə ordu sıralarında xidmət etmişdir.Aşur Əliyev 1971-1972-ci illərdə Daxili İşlər Nazirliyinin 11 və 1 saylı İƏK-də işləmişdir. 1973-cü ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində baş laborantvəzifəsində fəaliyyətə başlamış, 1974-1977-ci illərdəisə fakültənin aspirantı olmuşdur.

1977-1983-cü illərdə Aşur Əliyev Kitabxanaçılıq fakültəsində müəllim, baş müəllim, dekan müavini vəzifələrində çalışmışdır.

Qeyd etmək lazımdır ki, Aşur Əliyev də daxil olmaqla Kitabxanaçılıq-informasiya fakültəsinin əməkdaşları Azərbaycanda kitabxana işinin tarixinin öyrənilməsi istiqamətində uğurlu araşdırmalar aparmış və bu problemin hərtərəfli tədqiqinə çalışmışlar.

Bu baxımdan qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan Muxtar Respublikasında kitabxana işinin tarixinin öyrənilməsi kitabxanaşünaslıq elmi məktəbinin ən mühüm uğurlarından biri kimi qiymətləndirilə bi-

lər. Məhz Aşur Əliyev uzun müddət Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının dövlət arxivlərində və mərkəzi kitabxanalarında ciddi elmi araşdırmalar apararaq, o vaxta qədər tədqiqat obyekti olmamışbir problemin həlli məqsədilə çox vacib işlər görmüşdür. O, mövcud ədəbiyyatdan və dövri mətbuat materiallarından yaradıcılıqla bəhrələnərək geniş elmi ictimaiyyətə məlum olmayan bir sıra maraqlı faktları aşkara çıxarmış, onları elmi dövriyyəyə daxil etmiş, apardığı araşdırmaları bacarıqla ümumiləşdirmiş, 1920-1985-ci illərdə Naxçıvan Muxtar Respublikasında kitabxana quruculuğu sahəsində əldə edilən nailiyyətlər haqqında bitkin təsəvvür yaratmışdır.

Beləliklə, Aşur Əliyev "Naxçıvan MSSR-də kitabxana işi (1920-1985-ci illər)" mövzusunda yazdığı dissertasiya işini 1991-ci ildə BDU-nun Tarix fakültəsinin İxtisaslaşdırılmış Elmi Şurasında müdafiə etmiş və tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Aşur Əliyevin elmi-tədqiqat işi milli mədəniyyətimizin, milli tariximizin və elmimizin mühüm nailiyyətlərindən biri kimi qiymətləndirilmiş, Vətənimizin ayrılmaz, əzəli və əbədi tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında kitabxana işinin tarixinin böyük bir dövrünü əhatə etmiş, əsaslı faktlar və təkzibedilməz dəlillərə əsaslanan mühüm elmi və tarixi əhəmiyyət kəsb edən tədqiqat əsəri yazıb hazırlamışdır.

Aşur Əliyev 1992-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindəndosent elmi adına layiq görülmüşdür.

Dosent Aşur Əliyev həmçinin, 1992-ci ildən Fakültə Elmi Şurasının, eləcə də ixtisaslaşdırılmış müdafiə şuralarının, o cümlədən kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq və informasiyaya dair elmi-nəzəri, metodik və təcrübi jurnalların redaksiya heyətinin üzvüdür.

Dosent Aşur Əliyev uğurlu elmi-pedaqoji fəaliyyətilə yanaşı, həm də Kitabxanaçılıq-informasiya fakültəsinin və Universitetin ictimai həyatında da yaxından iştirak etmişdir.

Aşur Əliyev 1991-1992-ci tədris ilində təşkil edilən Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının aparıcı dosenti kimi uğurla fəaliyyət göstərir. Dosent Aşur Əliyev səmərəli pedaqoji fəaliyyəti ilə yanaşı, milli kitabxanaşünasıq elmi üçün ciddi nəzəri əhəmiyyət kəsb edən diqqətəlayiq elmi irs də formalaşdıra bilmişdir. Onun müəllifi və ya həmmüəllifi olduğu dərs vəsaitləri, metodik vəsaitlər, tədris-metodik vəsaitlər, elmi məqalələr müvafiq sahə üzrə mühüm əhəmiyyət kəsb edən elmi-nəzəri mənbə rolunu oynayır.



Dosent Aşur Əliyevin həmmüəllifi olduğu "Kitabxanaşünaslıq: kitabxana kataloqları"dərs vəsaiti hazırda Kitabxanaçılıq-informasiya fakültəsinin elmi və tədris ədəbiyyatı sistemində özünəməxsus yer tutur. Eləcə də, Aşur Əliyevin müəllifi olduğu "Təbiətşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi metodikası", "Ədəbiyyatın KBTcədvəlləri üzrə sistemləşdirilməsi" və "Çap əsərlərinin biblioqrafik təsviri qaydaları" adlı metodik göstərişləri də müvafiq sahə ədəbiyyatı sistemində diqqətəlayiq yer tutur.

Ümumiyyətlə, qeyd edək ki, dosent Aşur Əliyev də daxil olmaqla, "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının kollektivinin uzunmüddətli gərgin əməyinin bəhrəsi olan "Kitabxanaşünaslıq: kitabxana kataloqları" adlı dərs vəsaiti milli kitabxanaşünaslıq elmi üçün müstəqillik dövründə əldə edilmiş əhəmiyyətli uğurlardandır. Dosent Aşur Əliyevin həmmüəllifi olduğu və Azərbaycan dilində ilk dəfə nəşr olunan bu dərs vəsaitinin üstünlüyü bundadır ki, həm də kitabın digər müəllifləri-tarix elmləri doktoru, professor A.A.Xələfov, tarix elmləri namizədləri, dosentlər E.M.Bədəlov, A.N.Abbasova, T.F.Quliyev və M.M.Həsənov kitabda əhatə olunmuş problemləriuzun illər ərzində elmi cəhətdən dərindən tədqiq etmiş, əsaslı elmi təhlil və nəzəri ümumiləşdirmələr aparmışlar. Məhz dosent A.Əliyev həmmüəllifi olduğu bu qiymətli dərs vəsaitində kitabxana kataloqlarının əhəmiyyəti və əsas xüsusiyyətləri, bütövlükdə kataloq sistemi, onun məlumat-axtarış funksiyaları, növləri, həmçinin, sənədlərin təsviri, təsnifləşdirilməsi və predmetləşdirilməsi kimi mühüm əhəmiyyət kəsb edən, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının elmi və tədris profilinin əsasını təşkil edən aspektlər üzrə qiymətli nəzəri mənbə rolunu oynayan problemlər kompleks təhlil edilmiş, əsaslı dəlillər və tutarlı faktlarla zəngin olan nəzəri ümumiləşdirmə formalaşdırılmışdır.

Dosent Aşur Əliyevin indiyə qədər Respublikanın nüfuzlu elmi jurnallarında, dövri mətbuatda 60-a yaxın elmi məqaləsi çap olunmuşdur ki, bu da onun elmi-nəzəri irsinin mühüm və qiymətli tərkib hissəsi kimi qiymətləndirilir.

Aşur Əliyev fəaliyyət göstərdiyi kollektivdə, öz yoldaşları, həmkarları, dostları, tələbələri arasında hər zaman öz sadəliyi, səmimiliyi, təvazökarlığı ilə hörmət qazanmışdır. Bu gün də, ömrünün müdriklik çağında onun səmimi söhbətləri, kollektivlə, dostlarla, tələbələrlə xoş, gülərüz rəftarı onu hər kəsə daha da doğmalaşdırır.

Aşur Əliyev bir müəllim və alim olaraq, həm də qayğıkeş ailə başçısı, fədakar ata və mehriban babadır. Onun övladları da yüksək təhsil görmüş, yüksək mədəniyyətə yiyələnmiş ziyalı şəxsiyyətlərdir. Məhz bu faktor da Aşur müəllimin şəxsiyyətini tamamlayan ümdə keyfiyyətlərdəndir.

Möhtərəm həmkarımız, əziz alim dostumuz Aşur Əliyev hazırda hazırda öz ömrünün müdriklik, və elmi-pedaqoji fəaliyyətinin məhsuldar dövrünü yaşayır. Hörmətli Aşur müəllimə ömrünün müdrik pilləsinin üzərinə daha neçə illərin gəlməsini, canının sağlam, ruhunun cavan, cüssəsinin gümrah olmasını diləyir, elmi-pedaqoji fəaliyyətinin isə daha uca zirvələrini fəth etməyi arzu edirik.